# "Heydər Əliyev İli" çərçivəsində Gənclər Təşkilatlarının Strateji Planlaşdırma Düşərgəsi keçirilib




**Gənclər və İdman Nazirliyi, Gənclər Fondunun birgə tərəfdaşlığı, Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ) təşkilatçılığı ilə Şəki şəhərində "Heydər Əliyev İli" çərçivəsində Gənclər Təşkilatlarının Strateji Planlaşdırma Düşərgəsi keçirilib.**

100-ə yaxın gənclər təşkilatının rəhbər və nümayəndələrinin iştirak etdikləri düşərgənin məqsədi gənclər təşkilatlarının birgə fəaliyyət strategiyalarının müzakirə edilməsi, aidiyyəti istiqamətdə görüş, müzakirə, vorkşopların keçirilməsi ilə bağlı birgə sənədin hazırlanması olub.

Proqrama əsasən, ilk gün Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub. Layihədə gənclər təşkilatlarının sərgisi nümayiş olunub, iştirakçıların şəbəkələşməsi, təmsil etdikləri təşkilatların tanıdılması üçün komanda oyunları və digər müxtəlif intellektual oyunlar təşkil edilib.

Layihə düşərgənin formatına uyğun olaraq, gənclər təşkilatlarının strateji planlaşdırılması istiqamətində müzakirələr və ünvanlanan sualların cavablandırılması ilə yekunlaşıb. Sonda Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Azərbaycan.- 2023.- 8 iyun.- S.8.